Интересно произведение Лятифа Акпера «Сокровища фараонов». Роман этот написан в новом для азербайджанского детектива жанре: приключенческом, но с элементами детектива. Он повествует о поисках сокровищ Древнего Египта. Главный герой – выпускник Сорбонны Анри Вельцени, который специализируется по истории Востока (Древнего Египта). В основе приключенческого сюжета лежит криминальный мотив.

В азербайджанской детективной литературе появляется «крутой детектив», триллер. Основоположником этого жанра является Сафар Али - автор романов «Пока не пошел дождь», «Последний клиент».

Тема тюремной жизни, не характерная для азербайджанской литературы того времени, нашла свое художественное решение в творчестве И. Караева. Показательны в этом отношении романы «Sxodka», «Budaqlar». «Sxodka» – роман повествующий о криминальной жизни, раскрывающий глубину психологии персонажей – преступников с их сложными характерами, и коренным образом отличающихся от других его произведений. Сложность сюжетной линии, своеобразие тюремной жизни, мира заключенных, реальное изображение событий, происходящих здесь, не благовидная деятельность тюремной «прокуратуры» и «суда», раскрытие специфических характеров отдельных людей, находящихся в тюрьме и другие вопросы нашли в романе свое художественное решение. Автор, не щадя своего читателя, бросает его в эту сложную атмосферу и раскрывает всю правду этой стороны жизни.

Третья глава диссертации - **«Детективный жанр и современная азербайджанская литература»** - состоит из двух подглав.

Первая подглава третьей главы посвящена творчеству **Чингиза Абдуллаев**а - основоположника политического и интеллектуального детектива в азербайджанской литературе. Благодаря его активной творческой деятельности за последние 20-25 лет интенсивно развивается классический детектив. Он умело совмещает каноны классического детектива и современную тематику. Его романы и повести, написанные в форме политического детектива, не просто сухое изложение каких-то исторических фактов, событий, в них он высказывает свое личное отношение к этим событиям, чем и вызывает читательский интерес. Изложение авторской позиции является новшеством в детективной литературе. Его классические детективы – повесть

«Почти невероятное убийство», роман «Игры профессионалов» близки произведениям А. Кристи. Он использует многие приемы, которые она применяла. В них, следуя законам жанра, Абдуллаев изображает сыщика-детектива изобретательным, умным, всегда правдивым.

В азербайджанской литературе Ч. Абдуллаев стал также основателем «политического» детектива. В романах «Охота на человека», «В ожидании Апокалипсиса», «Три цвета крови» и др. отражены глобальные, общечеловеческие проблемы: борьба со злом, преступностью, коррупцией, наркомафией, терроризмом. «Политический детектив» Ч. Абдуллаева характеризуется законченностью, актуальностью. Одна из главных проблем, поставленных во многих его произведениях – проблема распада советской империи и последствия этого для народов, проживших в составе Российской, затем Советской империи и проживающих в ней и по сей день. Отражение этой темы является одной из глобальных и трудно решаемых проблем. Нужно отметить произведения Абдуллаева, непосредственно посвященные данной теме: романы «После Заката», «Символы распада», «Бремя идолов», «Пепел надежды», серия «Распад» и др. Данная проблема освещается не столько в ностальгической тональности, хотя мы наблюдаем и этот момент, скорее в аналитической, оптимистической. Аналитико-документальная манера изложения придает авторскому тексту своеобразный оттенок иронии.

Откровенно ставит Ч. Абдуллаев в романе «Пепел надежды», в азербайджанском цикле политических детективов – «Серии о негодяях» проблему беженцев, будь то чеченская война или азербайджано-армянская.

В ряде романов автор затрагивает проблемы криминализации молодого поколения. Впервые эта проблема была поставлена Абдуллаевым в романе «Бремя Идолов». Автор показывает, как будущее огромной державы зависит от воспитания молодого поколения. Эта тема получила свое развитие в романе «Тверской Бульвар»и в ряде других произведений.

Ч.Абдуллаев является автором целой серии известных во многих странах мира политических, классических и шпионских детективов с участием Дронго, состоящих из отдельных романов и повестей. Главное, что привлекает читателей в детективах Ч. Абдуллаева – это образ частного детектива, профессионала-аналитика Дронго, «сквозного» героя многих романов и повестей писателя, который успешно противостоит преступникам (политическим, уголовным). Дронго – уникальное создание автора, абсолютный образ – вопло-

щение идей самого писателя. Дронго – собирательный образ разведчика, сыщика-аналитика. Образ этот немного автобиографичен, так как в нем отражены некоторые черты характера и размышления самого писателя. По происхождению он земляк автора – азербайджанец, носит в себе все положительные черты, все достоинства присущие азербайджанцу: мужество, бесстрашие, благородство, утонченность, любовь к людям, независимо от их принадлежности к той или иной нации, отзывчивость. Герой целеустремлен, верен своим товарищам, может оставаться самим собой, но порою задирист, любит поумничать, иногда действия его лишены четкости, как в «крутом» романе, он применяет временами силу (кулаки, оружие), к этому поступку его вынуждают обстоятельства, хотя сам он против этого, не очень любит стрелять. Герой верен своим идеалам. Иногда он испытывает ностальгию по старому государству, в котором родился и прожил сознательную часть своей жизни. Но знает, что привело огромную страну к распаду: гнилость, коррупция власти, маразм коммунистического строя.

До сих пор ни один из авторов многочисленных детективных произведений, после А. Конан Дойла, А. Кристи, Ж. Сименона, Я. Флеминга, не смог создать такой яркий образ героя-детектива, достойного встать рядом с именами великих героев: Шерлока Холмса, Эркюля Пуаро, Комиссара Мегрэ. Через столько лет только Ч.Абдуллаеву удалось создать образ легендарного героя – сыщика Дронго. Об этом очень хорошо написал азербайджанский литературовед А.Гаджиев: «…После отмены идеологических преград … только одному из современных авторов удалось создать в своих произведениях образ литературного детектива, достойного встать в один ряд с вышеназванной великолепной тройкой…».[1]

Хотя Ч.Абдуллаева критикуют за ностальгические ноты в его произведениях, но это поверхностные наблюдения. Следует отметить, что эта ностальгия не столько по распаду конкретной империи (в своих произведениях он неоднократно говорил о реальных причинах этих событий), а скорее о потере определенных идеалов, веры. Автора волнует безыдейность, духовная пустота современного общества.

Все исторические и политические события последних 20 лет отразились в детективах писателя. Он затрагивает самые насущные проблемы современного мира. Все они направлены на борьбу со злом, преступностью.

---

[1] Гаджиев А. Суперцикл о Дронго // Литературный Азербайджан, 2003, № 2, с. 90.

Ч. Абдуллаев обогатил детектив новыми приемами, яркими образами открыл новые возможности перед последователями этого популярного в наши дни жанра и достойно вывел его на международный уровень.

Вторая подглава называется «**Состояние детективного жанра в азербайджанскойлитературе на современном этапе**». За последние 20 лет заметно, что детективная проза в азербайджанской литературе поднялась на следующую ступень и интенсивно развивается. Появляются один за другим авторы-детективисты, чьи произведения также заслуживают пристального внимания и изучения.

В связи с этим необходимо остановиться на творчестве Ильгара Фахми. Его роман «Актриса» написан в жанре психологического детектива. Опираясь на жизненный материал, написанный ярким образным языком, отвечая на все требования детективного жанра, произведение это привлекает к себе внимание также из-за философско-психологических моментов. Интересно представлен образ современного сыщика, расследующего убийства, следователя Эльдара Эфендиева. Все события в произведении даны в рамках требований психологического детектива, проработаны логически, последовательно, соответствуют действительности, с использованием художественных приемов. Главная цель – в полной мере донести до читателя суть произведения. Интересна также идея «Актрисы». Сама жизнь состоит из игры. Люди играют друг с другом. Эта игра неминуема, неизбежна, так как никто до конца не раскрывает окружающим то, что творится у него в душе, в голове.

Роман «Акваланг» Ильгара Фахми – произведение, которое построено на антитезах. Хотя в произведении нет острой социальной проблематики, но здесь затронуты вечные проблемы, волнующие человечество: проблема добра и зла, моральных ценностей, чести и достоинства, человеческих желаний, страстей. В произведении мистика соединяется с реальностью, имеются философские нотки о рае и аде, добре и зле, чистоте и грехопадении.

Алисафа Азаев использует жанр «полицейского детектива» для многих своих произведений. В них отражается жизнь азербайджанской провинции 70-80 годов XX века. Он изображает в своих произведениях повседневную жизнь простых людей в деревнях и провинциальных городах Азербайджана с их трудовыми буднями, а также тяжелую работу сотрудников правоохранительных органов, органов правосудия, внутренних дел. В повести “Gecəyarı sui-qəsd” автор рассказывает о бдительности сотрудников милиции, стоящих на

страже правопорядка. Основным лейтмотивом повести является непримиримая борьба органов правопорядка против темных сил преступности. А.Азаев является продолжателем традиций «полицейского» детектива Д.Амирова. Это наблюдается как в тематике его произведений, так и в образах главных героев. Хотя действия многих его повестей и романов происходят в 70-80-е годы, изображаются события Великой Отечественной войны 1941-1945 годов, но все это автор пропускает через призму современности, смотрит на прошедшие события глазами современного человека.

Эльхан Элатлы – автор многих детективных рассказов, повестей, романов, написанных за последние годы. Роман «Arxalı canavar» написан в приключенческо-детективном жанре. В этом произведении автор создает образ Гамбая Гасымлы – частного сыщика, бывшего офицера полиции, встречающийся и в других его произведениях.

Его роман «Qan ləkəsi» – своеобразный синтез полицейского детектива, боевика и шпионского романа. В произведении затронуто много разных актуальных тем: воспитание молодого поколения, семейно-бытовых отношений, взаимоотношения учителя и ученика. Но главная тема – карабахская война и ее трагические последствия, азербайджано-армянский конфликт, отражение последствий войны на судьбах целых поколений. С этой точки зрения роман носит воспитательно-патриотическое значение, воспитывает чувство патриотизма, любви к родине.

Роман Э. Элатлы «Bakıdan gələn xəfiyyə» написан в жанре классического детектива. Автор рассказывает нам о жизни азербайджанцев, живущих и работающих в далекой Сибири. Происходит преступление, убийство человека на вечеринке, которую организовал известный азербайджанский бизнесмен у себя в доме. Частный сыщик Гасымлы спасает азербайджанскую диаспору, проживающую в Сибири, от мести местного населения, от дальнейших тяжелых последствий, к которому могло привести это обвинение.

Роман «Xəyanət» написан в жанре психологического детектива, соответствует его правилам. Э.Элатлы повествует нам о самых невероятных убийствах, ставит в этом романе важные проблемы: сложных семейных отношений, бескорыстной чистой любви, измены, преданности, долга, порядочности, доброжелательства, дает психологическую характеристику своих героев.

Эльчин Гасанов в своих произведениях затрагивает остросоциальные и философские темы. В то же время негативно относится к традициям, за что все его произведения называют скандальными. В

2011 году большую известность получил текст Гасанова «Кавказцы в Великой Отечественной Войне (Письма Кавказцев)», представляющий собой раскрытие архива с фронтовой перепиской солдат с Кавказа времен ВОВ, содержащей описания зверств и издевательств, творимых солдатами на оккупированных территориях, и диалоги о них известных политиков, ученых, военных. Данный текст цитируется на многих сайтах и форумах как достоверный документ.

За последние десять лет им написаны шпионские детективы - «Вербовка», «Жертва Киднеппинга», «Убийцы», «Убить Ее», «Катана», «Убийство журналиста», «Допрос бакинской бандитки Риты Чопур (Криминальные Очерки)».

В жанре детектива пишет и Эльчин Эйюбов. Первое его произведение «Капкан для Ягуара» – приключенческий роман с элементами детектива, где описываются невероятные, порой уму непостижимые приключения молодого психолога. Волею судьбы герой оказывается в центре событий, где происходит торговля наркотиками. Случайно к нему попадают деньги наркобаронов, которые начинают настоящую охоту за молодым человеком. Ему приходиться пережить тяжелые испытания и чудом выжить.

Второе произведение Э.Эюбова «Сорок пять дней в преисподней» – своеобразное переплетение шпионского, политического детектива и боевика, роман об одном из жесточайших зол, придуманном человеком, о терроризме. «Речь, конечно же, идет о частном случае, то есть об отдельно взятой стране, где армянский террор и агрессия стоят отдельным особняком».[1] Изображена работа спецслужб разных стран: Азербайджана, Америки, России, Израиля, Армении. Автор дает исторические справки о возникновении и деятельности армянской террористической организации АСАЛА, показывает, какие они творят бесчинства в Нагорном Карабахе, совместно с политиками Армении превращают наши земли в наркоплантации, используя бесплатную рабочую силу – пленных азербайджанцев, изображает некоторых армянских политиков, известных людей, например, писателя Зория Балаяна. Все эти приемы характерны для политического детектива.

Итак, проследив историю развития детектива в азербайджанской литературе, проанализировав произведения писателей, работающих в этом жанре, мы можем сделать выводы о современном состоянии детектива в Азербайджане, о его исторически сложившихся видах.

---

[1]Эйюбов Э. Сорок пять дней в преисподней. Роман. Баку: Ширваннешр, 2008, с. 3.

**Заключение** диссертации содержит обобщение основных результатов исследования.

**Основные положения диссертации нашли отражение в следующих публикациях автора:**

1. Детектив: Эволюция жанра // Filologiya məsələləri. Bakı, 2007, № 6, s. 229-236.

2. Популярность современной детективной литературы // Filologiya məsələləri. Bakı, 2007, № 7, s. 198-203.

3. Становление и развитие детективного жанра в азербайджанской литературе // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2008, № 4 (64), s. 89-92.

4. Современный взгляд на прошлое // Elmi axtarışlar (folklorşünaslıq: filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri). Bakı, 2009, № IV, s. 204-209.

5. Детективный жанр. Обзор критических работ // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (ali məcmuəsi). Bakı, 2009, s. 156-160.

6. Современный детективный жанр и его виды // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2009, № 4(70),

7. Шпионский детектив (краткий обзор) // Поиск. Научный журнал министерства образования и науки. Серия гуманитарных наук, Казахстан, 2010, № 1, с. 176-180.

8. Azərbaycan polisiye romanlarında sosyal hayatın bedii ifadesi: Cengiz Abdullayev'in yaratıcılığı esasında // Sosyoloji Yıllığı-20. Türk Sosyologları ve Eserleri-II. Genel Eğilimler ve Kurumsallaşma. Kitabevi, İstanbul, 2010, s. 456-460.

9. Современное состояние азербайджанского детектива / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Azərbaycanşunaslığın aktual problemləri" mövzusunda III Beynəlxalq elmi konfransının materialları. BSU, 2-5 may, Bakı, 2012, s. 55-58.

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**CƏMİLƏ CƏNUB QIZI ABBASOVA**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA DETEKTİV JANRI

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru**
**elmi dərəcəsi almaq üçün təqdim olunmuş**
**dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI - 2016**

Dissertasiya Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *filologiya üzrə elmlər doktoru, professor*
**Vaqif Sultanlı**

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Himalay Ənvər oğlu QASIMOV**

*filologiya üzrə elmlər doktoru, professor*
**Əlizadə Bayram oğlu ƏSGƏRLİ**

**Aparıcı müəssisə:** **Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrası**

Müdafiə «_15___» _04__ 2016-cı il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2016-cı ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Müasir Azərbaycan ədəbiyyatında detektiv janrı nəinki mövcudluğunu qoruyub saxlamış, həm də aktuallığını itirməmiş, əhəmiyyətli dərəcədə dəyişmiş, yeni formalar və keyfiyyət kəsb etmişdir. Son iyirmi il ərzində daha intensiv şəkildə baş verməkdə olan bu proses həm Azərbaycanda, həm də bütövlükdə dünyada baş verən ictimai-siyasi hadisələrlə bağlıdır. Cinayətkarlıq, beynəlxalq terrorizm, istilaçı müharibələr – bütün bunlar detektiv ədəbiyyatında əhəmiyyətli dərəcədə öz izini buraxmışdır.

Son illərdə ölkədə nəşr olunan detektiv ədəbiyyatının payı kəskin artmış, bu janrın oxucularının sayı çoxalmış, ədəbi prosesə baxışların istiqaməti dəyişmişdir.

Fikrimizcə, müasir dövrümüzdə detektivi yalnız kütləvi ədəbiyyat elementi kimi deyil, ümumi ədəbi prosesin tərkib hissəsi kimi nəzərdən keçirmək çox önəmlidir.

Müasir Azərbaycan detektiv ədəbiyyatı, onun ən yaxşı nümunələri son onilliklərin siyasi, sosial və tarixi olaylarını əks etdirir. Bu mənada Azərbaycan ədəbiyyatında detektiv janrının elmi-nəzəri təhlili xüsusi aktuallıq kəsb etməkdədir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Geniş yayılmasına baxmayaraq, detektiv janrı Azərbaycan ədəbiyyatşünaslığında kifayət qədər öyrənilməmişdir. O, uzun müddət ciddi ədəbi tənqidin diqqətindən kənarda qalmış ədəbiyyat qisminə mənsubdur. Bu janrda əsərlərin qeyri-adi müyəssərliyi və məşhurluğu onların bədii dəyərlərini şübhə altına aldığından, detektiv janrı kifayət qədər ətraflı tədqiq olunmurdu.

XX əsrin 80-ci illərinin sonuna qədər Azərbaycanda ictimai-siyasi və tarixi səbəblərlə əlaqədar, bü mövzuya həsr olunmuş tədqiqatlar, demək olar ki, yox dərəcəsində idi. Ölkəmizdə detektiv janrının inkişafı yalnız ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində geniş vüsət almağa başladı. Məhz buna görə yerli tədqiqatçıların detektivin tarixinə, nəzəriyyəsinə, detektivçi yazarların yaradıcılığının təhlilinə həsr olunmuş əsərləri azdır. Bu mövzuya həsr olunmuş yalnız bir neçə məqaləni və elmi-tədqiqat işini göstərmək mümkündür. Şübhəsiz, bu, kifayət deyil və Azərbaycan detektivi ən geniş və ətraflı tədqiqata layiqdir.

Amerika və Avropa ədəbiyyatşünaslığında da detektivə həsr olunmuş ilk tədqiqatlar nisbətən gec – XX əsrin əvvəllərində meydana gəlmişdir. Aradan keçən bu illər ərzində dünya ədəbiyyatşünaslığında detektivlə bağlı kifayət qədər elmi-tədqiqat işləri yazılmışdır. Bu baxımdan, artıq zamanı

yetişdiyi üçün, Azərbaycan ədəbiyyatşünaslığında da mövzunun sistemli şəkildə araşdırılması çox önəmlidir.

Həm Azərbaycan, həm də dünya ədəbiyyatında detektiv janrının tarixi öz inkişafının növbəti mərhələsini yaşayır. Belə ki, son 20-25 ildə ölkəmizin ictimai həyatında və dünyada qlobal dəyişikliklər baş vermiş və bütün bunlar ədəbi prosesə, o cümlədən müasir detektivə təsir göstərmişdir.

**Tədqiqatın metodoloji əsasını** tarixi-müqayisəli metod, klassik və müasir konsepsiyalar, detektivə estetik baxışlar təşkil edir ki, bunlar detektiv ədəbiyyatının ümumədəbi prosesdə yerini müəyyənləşdirir, onun əsas xüsusiyyətlərini üzə çıxarır və ətraflı səciyyələndirir, bu janrın inkişaf yollarını, xüsusən də Azəbaycan ədəbiyyatındakı inkişafını izləyir, detektivin janr özünəməxsusluğuna malik janrlara (klassik, casus, siyasi, triller, döyüş), həmçinin detektivə yaxın janrlara (kriminal, macəra) müxtəlif təsnifatını təklif edir.

XX əsrin sonu üçün artıq həm ingilis, həm də rus dillərində xüsusi sorğu ədəbiyyatı yarandı. Tədqiqatın metodoloji əsasının tərkib hissəsinə çevrilən bu ədəbiyyat detektiv janrında əsərləri həm dünyaya baxış, həm də ədəbi yaradıcılıq tipi qismində nəzərdən keçirməyə yardımçı olur, bu ədəbiyyatın inkişaf yollarını nümayiş etdirir və onun əsas nümayəndələri ilə tanış edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Müasir ədəbiyyatşünaslığın nailiyyətlərindən, mövcud tənqidi materialdan istifadə etməklə, tədqiqatın müəllifi Azərbaycan ədəbiyyatında detektiv janrının yaranması və inkişaf qanunauyğunluqlarını öyrənib ümumiləşdirməyi, həm Azərbaycan, həm də dünya ədəbiyyatında onun müasir durumunun təhlilini verməyi, XX-XX1 əsr dünya ədəbiyyatının inkişaf tarixində detektivin rolunu müəyyənləşdirməyi, Azərbaycanda detektiv janrının başlıca xüsusiyyətlərini araşdırmağı qarşısına məqsəd qoymuşdur. Bunun üçün tədqiqatda aşağıdakı vəzifələr qoyulur və həll edilir:

- ədəbiyyatşünasların detektiv janrına dair baxış və mühakimələrini təhlil etmək;
- detektivin janr kimi mahiyyəti, anlamı və əhəmiyyətini səciyyələndirmək, terminin yaranmasını şərtləndirən amillərə diqqət yetirmək;
- detektivin janr kimi təkamülünü araşdırmaq və bu proseslə bağlı baş vermiş dəyişiklikləri müəyyənləşdirmək;
- detektivin müxtəlif forma və növlərinin təhlilini vermək;
- detektiv janrının Qərbi Avropa, Amerika, rus və Azərbaycan ədəbiyyatlarında müqayisəli-tarixi təhlilini vermək, yaranma tarixini, inkişaf mərhələlərini sərf-nəzər etmək;

- Azərbaycan ədəbiyyatında detektivin bir janr kimi yerini müəyyənləşdirmək;

- Detektivin Azərbaycan ədəbiyyatında çağdaş durumunu müəyyənləşdirmək;

- Azərbaycanın müasir detektiv yazıçılarının əsərlərinin tematikasını və problematikasını təhlil obyektinə çevirmək;

- Azərbaycan detektivinin dünya ədəbiyyatında yerini və rolunu müəyyənləşdirmək.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda detektiv janrı, onun həm Azərbaycan, həm də dünya tarixində inkişaf mərhələləri elmi-tarixi və elmi-nəzəri aspektlərdə əks olunmuş, detektivin dünya ədəbi prosesinə təsiri vurğulanmış, janrın təkamülü izlənilmiş, Azərbaycan ədəbiyyatında onun yeni növləri, son 20 ildəki durumu göstərilmiş, bu janrda yazıb-yaradan müasir Azərbaycan yazıçılarının əsərləri ilk dəfə araşdırmaya cəlb olunmuşdur.

Dissertasiyada müasir Azərbaycan detektivinin dünya ədəbiyyatına verdiyi töhfə vurğulanmış, Azərbaycan və dünya detektiv ədəbiyyatının qarşılıqlı əlaqəsi göstərilmişdir.

**Tədqiqatın obyekti,** əsasən, Azərbaycan, həmçinin rus, Amerika, Qərbi Avropa detektiv ədəbiyyatı nümunələri, detektiv yazıçılarının ədəbi prosesdə yeni həll axtarışları, janrın nəzəri tədqiqləri, onların Azərbaycan ədəbiyyatşünaslığı ilə əlaqəsidir. Azərbaycan detektivinin inkişaf tarixi C.Əmirov, Ç.Abdullayev, Ə.Azayev, Q.Əlisaoğlu, E.Elatlının, E.Eyyubov, İ.Fəhmi, İ.Qarayev, N.Rəsulzadə, Ç.Ələkbərzadə, Anar, Elçin, S.Əli və digər yazıçıların əsərləri nümunəsində araşdırılmışdır. Xarici ölkə detektivinin tarixi isə Edqar Po, A.K.Doyl, Q.K.Çesterton, A.Kristi, D.Xemmet və b.yaradıcılıq nümunələri əsasında təhlil olunmuşdur.

Tədqiqat nəticələrinin **praktik əhəmiyyəti** tarixi-ədəbi istiqamətliliyi, müasir ədəbi prosesi dərk etməyə yönəlik aspekləri ilə şərtlənir. Tədqiqatın nəzəri mülahizələri və praktik nəticələri müasir Azərbaycan ədəbiyyatının tarixinə əhəmiyyətli və vacib əlavə ola bilər.

Tədqiqat materiallarından müasir Azərbaycan ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi üzrə mühazirələrdə, bakalavriat və magistratura pillələrində, müasir Azərbaycan ədəbiyyatı üzrə xüsusi kurs və xüsusi seminarlarda yararlanmaq, proqramın, vəsaitlərin sonrakı təkmilləşməsində, bədii təcrübədə, ensiklopediyaların, biblioqrafik məlumat kitabçalarının tərtibində məlumat materialı kimi istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları yerli və xarici elmi jurnal və toplularda çap olunmuş səkkiz məqalə və konfrans tezislərində əksini tapmışdır.

**Tədqiqatın strukturu**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**«Giriş»də** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, obyekti, başlıca məqsəd və vəzifələri, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, tədqiqat metodları və müdafiəyə çıxarılan müddəalar vurğulanır.

Birinci fəsil **«Detektivin poetikası»** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **«Detektiv və ədəbi-estetik fikir»** məsələləri araşdırılır. Detektivin öyrənilməsinin yerli ənənəsi təşəkkül mərhələsindədir, belə ki, milli sərhəd tanımayan bu janrla geniş tanışlıq Azərbaycan oxucusu üçün XX əsrin 50-60-cı illərində başlamışdır. Ədəbiyyatşünaslığımızda bu sahədə tədqiqat mövzularının sayı çox azdır. Dünyada isə detektivin tarixinə və təşəkkülünə həsr olunmuş çoxsaylı ədəbiyyat mövcuddur. Ən nüfuzlu araşdırmalar Amerika, ingilis və fransız tədqiqatçılarına məxsusdur. Tarixən belə alınmışdır ki, məhz bu ölkələrdə X1X əsrin ortalarında hekayə ədəbiyyatının detektiv adlandırılmış xüsusi tipi yaranmışdır. Detektivi xüsusi janr kimi təhlil edən ilk nəzəriyyəçi Q.K.Çesterton olmuşdur. Onu «detektivin daxili quruluşu» maraqlandırırdı, çünki o, digər ədəbi əsərlərdən bəzi qayda və xüsusiyyətləri ilə fərqlənirdi. Detektivin ən parlaq praktiklərindən olan Çesterton hesab edirdi ki, bu janra xüsusi konstruksiya növü kimi yanaşmaq lazımdır.

R.Ostin Frimenin «Detektiv incəsənəti» əsəri də maraq kəsb edir; burada o, süjetin özünəməxsus, maraqlı kompanovkasını verir: problemin qoyuluşu; onun həlli üçün vacib olan dəlillərin aşkarlanması; həqiqətin müəyyənləşdirilməsi, yəni detektivin təhqiqatının başa çatması və nəticənin elan olunması; təhqiqatçının hansı yolla bu nəticəyə gəlməsinin, onun məntiqi əsaslandırılması diqqəti çəkir.[1]

Detektiv ədəbiyyat problemini «Holmsiana, yaxud detektiv romanlar haqqında» (1924) məqaləsinin müəllifi Karl Çapek də nəzərdən keçirir. O, detektiv romanı motivlər baxımından səciyyələndirir: a) kriminal motiv; b) hüquqi motiv; v) tapmaca motivi; q) müşayiətçinin motivi; d) əməl motivi; e) metodun ruhu; j) təsadüfilik motivi; z) protokollaşdırma; i) unikallıq.[2]

1928-ci ildə S.S.Van Dayn və 1929-cu ildə Ronald Noks detektivin yazılma qaydalarını təsbit edirlər. 1928-ci ildə Rayt özünün tərtib etdiyi

---

[1] Р.Остин Фримен. Искусство детектива / Как сделать детектив. М.:Радуга, 1990, с. 34.

[2] Чапек К. Холмсиана или о детективных романах. Собрание сочинений в 7 томах. Т. 7. Статьи, очерки, юморески. М.: Художественная литература, 1977, с. 320.

«Ən yaxşı detektiv hekayələr» antologiyasını nəşr etdirir. Detektivin tarixi və nəzəriyyəsinin sərf-nəzər edildiyi geniş ön sözdə o öz qaydalarını elan edir: detektivin oyun xarakterli olmasının vacibliyini vurğulayır, üslub zərifliyinin də, sevgi maraqlarının da, sosial istiqamətliliyin də lüzumsuz zinət olduğunu iddia edir.

İngilis yazıçısı, məşhur detektiv roman və novellaların müəllifi Doroti Seyres özünün «Sirr, dəhşət və deduksiya ədəbiyyatı antologiyası» əsəri ilə janrın tarixinə maraqlı töhfə verdi. İlk nəşrin ön sözü detektiv janrının qanun və qaydalarının təhlili üçün nümunə sayıla bilər, hərçənd ki, zaman detektivin çərçivələrini genişləndiməklə bura öz düzəlişlərini etdi. D.Seyresin ideyaları bu gün də dolğunluğunu itirməmişdir.

D.Dikson Karrın qələmindən çıxan «içəridən qapalı otaqda» cinayət törətməyin metodologiyasına həsr olunmuş oxunaqlı «Bağlı otaq haqqında mühazirə» oçerk-traktatı, janrın məşhurluğunun səbəblərini bənd-bənd izah edən Bertold Brextin «Detektiv romanın populyarlığı haqqında» məqaləsini, detektiv müəlliflərinin yol verdiyi səhvləri göstərən, bu janrda yazanlara maraqlı və əməli məsləhətlər verən Somerset Moemin «Detektiv romanın çöküşü və məhvi tarixi» essesini, Xeykroftun «Həzz naminə qətl», J.Makklerinin «Detektiv və sair haqqında», E.Rutlinin «Detektiv və puritan ənənəsi», A.Mertçin «Detektiv romanın inkişafı» və digər tədqiqatları da qeyd etmək vacibdir. Lakin adları çəkilən bütün əsərlərdə müəlliflər detektivi sırf ədəbi hadisə kimi səciyyələndirərək, onun ictimai əhəmiyyətinə diqqət yetirmirlər.

Bu dövrdə detektiv janrının yeni nəzəriyyələrinin işlənib hazırlandığı tədqiqatlar meydana çıxır. Bu baxımdan Fransada psixoloji detektivin tanınmış müəllifləri Bualo-Narsejakın və Tom Narsejakın əsərlərini qeyd etmək olar. Həmmüəlliflər nəzəri prinsiplərini və praktik təcrübələrini «Detektiv roman», «Detektivin estetikası», «Yalanın sonu. Amerikanın qara detektivi» və b. tədqiqatlarında təqdim etmişlər.

Ədəbiyyatşünasların bir qismi detektivi sırf intellektual oyun kimi nəzərdən keçirir, bəzi müəlliflər üçün detektiv – fabulası cəmiyyətin cinayətkarlığını ifşa etmək üçün vasitə rolunu oynayan sosial-tənqidi əsərdir. «Oyun» konsepsiyasının tərəfdarları janrın saflığını qoruyaraq, mövzunun sosial, psixoloji işlənməsinin detektiv fəaliyyətlə uzlaşması imkanını inkar edir, bunun mütləq janrın məhvinə səbəb olacağını düşünürlər. Çex teatr tənqidçisi İ.Çernı «Detektiv oynayırıq» məqaləsində bu haqda ətraflı yazmışdır.[1]

---

[1] Черны Н. Играем в детектив // Журнал «Divadlo», 1963, № 8, с. 23-29.

Tənqidçilərin digər qrupu detektivi incəsənət və ədəbiyyat nümunəsi hesab edir. Belə sosial detektiv konsepsiyasının tərəfdarı Reymond Çandler mülahizələrini «Sadə qətlə yetirmək incəsənəti» essesində bölüşür.[1] Bu, «qoçaq detektivin» özünəməxsus manifestidir; müəllif janrın yazıçı tərəfindən düşünülmüş deyil, cəmiyyətdə törədilmiş cinayətləri canlandırdığı üçün realistik olmağa can atmasını vurğulayır. Buna görə detektiv ədəbiyyatın təcrubəsindən istifadə etmək hüququna malikdir.

Formula ədəbiyyatı haqqında ilk danışanlardan biri melodrama, vestern, detektiv kimi belletristik janrlara ciddi monoqrafiya həsr etmiş C.Kevelti olmuşdur.

Keçmiş Sovet İttifaqında xarici detektivin rus dilinə tərcüməsinin ilk təcrübələri detektivin yaranması ilə üst-üstə düşür. Məhz rus dilinə tərcümələr vasitəsilə ilk detektiv əsərlər Azərbaycan oxucusuna çatmışdır. Tərcüməçilərin operativliyi, ədəbi yeniliklər barədə kifayət qədər məlumatlı olmaları oxucularımıza U.Kollinzin, J.Ş. le Fanyunun, M.E.Breddonun, missis Henri Vud və C.Ledlau təxəllüsləri ilə yazan E.Praysın, E.Qaborionun romanları ilə tanış olmaq imkanı yaradırdı. XX əsrin əvvəllərində M.Leblanın, E.Uollesin, A.K.Doylun və b. əsərləri çap olunmağa başladı. Xarici detektivin ikinci «doğuluşu» «mülayimləşmə» dövrünə təsadüf edir və Çestertonun hekayələr toplusunun, həmçinin J.Simenonun romanlarının rus dilində çapı ilə əlamətdar olur. Detektiv janrının tədqiqinə həsr olunmuş əsərlərdən A.Qozenpudun «Yollar və yolayrıcıları», Y.Markulanın «Xarici kinodetektiv», B.Raynovun «Qara roman», A.Adamovun «Mənim sevimli janrım – detektiv» və b. göstərmək olar.

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində həm xaricdə, həm də sovet və postsovet məkanında detektiv janrının inkişafında yeni mərhələ müşahidə edilir. SSRİ-də uzun müddət mövcud olmuş xarici detektivə qadağa aradan götürüldükdən sonra haçansa yasaq olunmuş xeyli sayda kitab oxucuların ixtiyarına verilir.

Qərbi Avropa ədəbiyyatı ilə birlikdə, 90-cı illərin ortalarında həm də Azərbaycan detektivi dirçəlir, bu janrda işləyən yeni müəlliflər meydana çıxır. Bir çox məşhur detektiv əsərlər Azərbaycan dilinə tərcümə olunur. Ədəbi əsərlərlə yanaşı, xarici nəzəriyyəçi və tarixçilərin də bu janrda tədqiqatları tərcümə olunub rusca nəşr edilir.

Lakin Azərbaycan ədəbiyyatşünaslığında məsələ bir qədər fərqli idi. Yerli tədqiqatçıların detektiv janrının nəzəriyyəsinə, tarixinə, poetikasına, detektiv yazıçılarının yaradıcılığına və onların əsərlərinin təhlilinə həsr

[1] Чандлер Р. Вечный сон. Высокое окно. Блондинка в озере. Романы. М.: Прогресс, 1991.

olunmuş işləri çox azdır. Ə.Kənanın C.Əmirovun yaradıcılığına həsr olunmuş «Mən yalnız adları dəyişdirmişəm»[1] məqaləsini, S.Mirbağırovanın «Azərbaycan ədəbiyyatında detektiv janrı dünya ədəbiyyatı kontekstində»[2] dissertasiyasını göstərmək olar. Dissertasiyada Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə detektiv və kriminal janrların səciyyəsi verilmiş, detektiv əsərin strukturu nəzərdən keçirilmişdir. Tədqiqat 1996-cı ilə qədər olan dövrü əhatə edir.

Azərbaycanda son illərdə bəzi detektiv yazıçılarının yaradıcılığına həsr olunmuş az saylı tədqiqat işləri yazılmışdır. Bunlara misal kimi H.Hüseynovun «Janrın qanunlarına uyğun (Rus bestselleri haqqında mülahizələr)», Azərbaycan ədəbiyyatşünası A.Hacıyevin «Dronqo haqqında supersilsilə», İ.Fəhminin «Əbədi bizim Dronqo», K.İbrahimin «Oyuna çevrilən həyat və həyata keçən oyun», eləcə də E.Akimovanın «Oyun içində oyun, yaxud içimizdəki aktrisa» (hər iki iş İ.Fəhminin «Aktrisa» və «Akvalanq» əsərlərinin təhlilinə həsr olunub) tədqiqatlarını göstərmək olar.

İkinci yarımfəsil **«Janrın nəzəri məsələləri və Azərbaycan detektivi»** adlanır. Detektiv təkcə cinayət faktı haqqında sadəcə danışmaqla kifayətlənməyən, həm də onun törədilmə səbəblərini tədqiq etməyə can atan ədəbiyyat növüdür. Detektivdə cinayət mərkəzi olay, əsərin məğzi kimi çıxış edir. Detektivin əsasında xeyirin şərlə mübarizəsi durur; burada xeyir mütləq qalib gəlir, qəhrəman- detektiv - müstəqil xəfiyyə, polis, qurban, kəşfiyyatçı, xeyirin naminə cinayəti təhqiq edir. Detektiv – formullu ədəbiyyatdır, yəni müəyyən formullar, sxemlər əsasında qurulur.

Müasir ədəbiyyatşünaslıqda detektiv ədəbiyyatına nəzərən «janr», «ədəbiyyat növü» və «detektiv» məfhumlarının qarşılıqlı əlaqəsi haqqında məsələ mübahisələr doğurmaqda davam edir. Detektivin janr mənsubiyyəti nin müəyyənləşdirilməsi problemi bizim dövrümüzə qədər mübahisələr doğurur və işlənmə mərhələsindədir. Y.Markulan yazırdı: «Detektiv bir janr kimi «növlərin» sistemli cədvəlinə çox asan daxil olmur. O, epos və dramla bağlıdır, komediya, pyes, reportaj, sənədli nəzm, povest, novella, film, roman ola bilər».[3]

A.Adamov, T.Kestheyi, Y.Kovalev, B.Raynov kimi bir sıra nüfuzlu tədqiqatçılar detektivi janr hesab edirlər. Bu səbəbdən tədqiqatımızda onların baxışlarına əsaslanırıq.

---

[1] Кенан А. Я только лишь изменил имена. Газ. «Вышка», 1993, 7 октября.

[2] Мир-Багирова С.А. Детективный жанр в азербайджанской литературе (в контексте мировой литературы): Дисс. … канд. филол. наук. Б., 1998.

[3] Маркулан Я. К. Зарубежный кинодетектив. Л.: Искусство, 1975, с. 28.

Özünün «qızıl dövrü»ndən (XX əsrin 20-30-cu illəri) başlayaraq, detektiv dəyişikliklərə məruz qalır, tədricən janrın təkamülü baş verir. Bunun bir neçə səbəbi var: 1) janrın inkişafı, 2) klassik formadan daha mürəkkəblərinə keçid, 3) onun müxtəlif formalarının (klassik, siyasi, casus, döyüş, «kəskin triller», kriminal, mistik) yaranması. Bu janrın ən yeni nəzəriyyələrinin işlənib hazırlandığı tədqiqat işləri yazılır. Detektiv məhv olmaq təhlükəsi ilə üzləşir. Klassik detektivin sərt qanunları buna gətirib çıxarırdı. «Qızıl» əsrinə yüksələn klassik detektiv ilkin qanunları çərçivəsində imkanlarını tükətdi.

Birinci Dünya müharibəsi detektiv ədəbiyyatın xarakterini dəyişsə də, İkinci Dünya müharibəsindən sonra ictimai münasibətlər sistemi köklü dəyişikliklərə uğradı, bu isə keyfiyyətcə yeni – cinayət və cinayətkarın tipikləşdirildiyi və yenidən qiymətləndirildiyi detektivin yaranmasına səbəb oldu. Detektivin başlıca əlamətinin – cinayətin açılma prosesinin təsvirinin başa düşülməsi də dəyişdi, çünki cinayətlərin xarakteri dəyişmiş, onların tematikası genişlənmişdi.

Klassik detektiv polis, casus, siyasi detektivlərlə, kriminal romanla, döyüş detektivi ilə, «sərt» detektivlə əvəz olunur. Bəzi yazıçılar əks qütblü janrları, məsələn, detektiv və fantastikanı, detektiv və komediyanı birləşdirirlər.

Əgər əvvəllər detektiv oyun formasında cərəyan edirdisə (xəfiyyə qatili məyyənləşdirir və tapır, rebus, intellektual vəzifə həll edirdisə, (məsələn, L.Düpen, Ş.Holms, Braun ata), sonralar əsərlərdə həyati faktlardan istifadə olunmağa başlanır: təhqiqat törədilmiş cinayəti daha dərindən təhlil edir və burada peşəkarların – kriminalistlərin, hüquqşünasların, müstəntiqlərin işi vacib əhəmiyyət kəsb edir. Tədricən dünya detektivi cinayətkara cinayətdən daha çox diqqət ayrıldığı kriminal romana çevrilir.Yazıçını dünya ədəbiyyatında insan psixologiyası, bəşər cmiyyəti maraqlandırır. Beləliklə iki istiqamət yaranır: kriminal və detektiv janr. Müasir detektivlərdə ağır kriminaldan əlavə, iqtisadi (narkotik satışı, silah alveri), bilavasitə iqtisadi (pulun oğurlanması, çirkli pulların yuyulması), mülkiyyətçi hüquqlarının pozulması (avtonəqliyyatın qaçırılması, soyğunçuluq, zorla pul alma) cinayətləri təhqiq olunur. Cinayət real həyatı əks etdirdiyindən, özəl faktdan cinayətkarlığa çevrilir. Klassik detektivdə cinayətlər bir və ya bir neçə şəxs əleyhinə törədilirsə, müasir dövrdə onlar bütövlükdə cəmiyyət və ya müəyyən sosial təbəqəyə tuşlanır. Terrorizm və terrorçu kimi anlayışlar yaranır. A.N.Duplıkın təbirincə: «zahiri sxem praktik olaraq dəyişməyib – xəfiyyələr cinayətkarları tapır və cəzalandırırlar, amma indi müəlliflər cinayətlərə daha ciddi yanaşmağa başlayıblar;

onları yalnız hadisənin və təhqiqatın texnikası deyil, həm də cinayətin kökləri, onu yaradan sosial və psixoloji səbəblər maraqlandırır».[1]

Detektiv ədəbiyyatının müxtəlif nümayəndələri bu janrın əsas priyomlarını özlərinə məxsus şəkildə işləyir, bu isə onun növlərinin çoxcəhətliliyinə, bənzərsizliyinə dəlalət edir. Bu gün detektivə elə əsərlər aid edilir ki, onlar ənənəvi anlamda detektiv janrına mənsub deyillər. Janrın müxtəlif növ və yarımnövləri meydana gəlmişdir. Məhz detektivin sonrakı inkişafı onu bir sıra əlamətlərinə görə təsnif etməyə imkan yaratdı. Məsələn, özünün «Detektivin anatomiyası» kitabında Tibor Kestheyn kifayət qədər əhatəli təsnifat verir. Bu mövzunu fransızlar Bualo-Narserjak «Detektiv roman» tədqiqatında, R.Çandler «Sadə qətlə yetirmək incəsənəti» əsərində, Y Markulan «Xarici kinodetektiv» kitabında, A.Qozenpud «Yollar və yolayrıcıları», D.Simons «Qanlı qətl» əsərlərində nəzərdən keçirirlər.

Sadalanan nəzəri əsərləri ümumiləşdirib belə bir nəticəyə gələ bilərik: hazırda müasir ədəbiyyatda detektivin aşağıdakı əsas növləri vardır: 1. «Klassik» detektiv; 2. Polis detektivi; 3. «Sərt» roman; 4. Triller; 5.Döyüş; 6. Casus romanı; 7. Siyasi detektiv; 8. Mistik detektiv; 9.Fantastik detektiv; 10. Tarixi detektiv; 11. Kriminal-psixoloji roman. Dissertasiyada dünya və Azərbaycan detektivi materialı əsasında bu formaların hər biri üzərində dayanılmışdır.

Müasir Azərbaycan ədəbiyyatında detektivin aşağıdakı növləri fərqlənir: 1.Əsasını C.Əmirovun qoyduğu casus romanı. Onun davamçıları Ç.Abdullayev, E.Həsənov, E.Eyyubov və başqalarıdır; 2. Əsasını yenə C.Əmirovun qoyduğu polis detektivi. Onun davamçısı Z.Abramovdur. 2000-ci illərdən Ə.Azayev də bu janrda yazır; 3. Əsasını Ç.Abdullayevin qoyduğu klassik detektiv. Klassik detektiv formasına V.Cumazadənin, İ.Fəhminin, E.Elatlı və b. əsərlərini misal göstərmək olar. 4. «Sərt» detektiv XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində meydana gəlmişdir. İlk yazarı Səfər Əlidir. «Sərt» romana Ç.Abdullayev də müraciət edir. 5.Döyüş detektivi Ç.Abdullayevin silsilə əsərləri ilə təmsil olunur. 6.Siyasi detektivi ilk dəfə Ç.Abdullayev qələmə almışdır, bu növ XX əsrin 90-cı illərində yaranmışdır. 7.Tarixi detektiv də Ç.Abdullayevin adı ilə bağlıdır. 8. Fantastik detektivi L.Əsgərov təmsil edir. 9.Kriminal roman müəlliflərinə isə İ.Qasımov, H.Seyidbəyli, R.İbrahimbəyov, N.Rəsulzadə və b. göstərmək olar.

---

1 Дуплык А.Н. Нравственно-этические границы преступления в жанре детектива. Доклад по детективам Бориса Акунина «Пиковый валет» и «Декоратор». www.literra.ru Н. Вольский. Поэтика детектива

**«Dünya və Azərbaycan detektivinin təşəkkül və inkişaf tarixi»** adlı ikinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **dünya detektivinin yaranması, təşəkkülü və inkişaf mərhələləri** tədqiqata cəlb olunur. Detektivin kökləri çox qədimə - antik ədəbiyyata, əfsanə və rəvayətlərə, nağıllara, XVIII əsrin qotik romanına, qorxulu əhvalatlara uzanır və yalnız XIX əsrin 40-cı illərində o, müstəqil, bütün diqqətini cinayətlərə yönəldən xüsusi janr kimi meydana çıxır. Detektiv süjet və elementlərə hələ qədim ədəbi mənbələrdə: Vedalarda, Tövrat və İncildə, Quranda rast gəlinir, onlara «Min bir gecə» nağıllarında da, antik əsatirlərdə də, «Xuaben» tipli orta əsr Çin novellistikasında da təsadüf etmək mümkündür. Avropa ədəbiyyatında detektiv üçün səciyyəvi olan «analitik» kompozisiyanı ilk işlədənlərdən biri Sofokl olmuşdur. Detektiv janrın ənənələrini, onun formalaşması üçün gərəkli elementlərin toplanmasını izləyən tədqiqatçılar Şekspir, Volter, Bomarşe, Qodvin, Dikkens və Balzakın adlarını çəkirlər. Detektiv janrın nümunəvi əsərini yaratmağa ən çox yaxınlaşan E.T.D.Hofman olmuşdur. «Mademuazel de Skyüderi» novellasında həm sirr, həm də cinayətin təhqiqatı var, lakin «Xuaben» tipli Çin novellalarında artıq rast gəldiyimiz personaj – detektiv nəzərə çarpmır.

Ədəbiyyata onların yolunu məşhur avantüraçı, XIX əsrin birinci yarısında Avropanın ən koloritli və çox tanınmış fiquru - Fransua Ejen Vidok (1775-1857) açdı. Vidok xatirələrinin dördcildliyini nəşr etdirdi və tədqiqatçıların fikrincə, detektivin inkişafına ciddi stimul verdi.

Detektivin əsl tarixini tədqiqatçılar janrın klassik formasını yaratmış Edqar Ponun «məntiqi hekayələrinin» yaranması dövrü ilə əlaqələndirirlər. Onun geniş irsinə daxil olan beş novellada detektiv ədəbiyyat müəlliflərinin 165 il ərzində əməl etdikləri bütün başlıca prinsiplər işlənmişdir. Edqar Po özü bu novellaları hökm haqqında hekayələr adlandırırdı. Bunlar «Bağlı otağın sirri» haqqında hekayələr ənənəsinə başlanğıc vermiş «Morq küçəsində qətl»; sırf məntiqi təhqiqat təcrübəsini əks etdirən «Mari Rojenin sirri»; kriptoqram açılmasına əsaslanan yüzlərlə süjetin əcdadı «Qızıl böcək»; bütün digər izahlar atıldıqdan sonra qalan yeganə izahın, nə qədər ağlasığmaz olsa belə, düzgün olduğu nəzəriyyəsini təsdiq edən «Oğurlanmış məktub»dur. Bu hekayələrdə bədii ədəbiyyatda ilk böyük xəfiyyə–kavaler Ş.Oqüst Düpen təqdim olunmuşdur.

Janr ABŞ-da dünyaya gəldi, sonra eyni uğurla Avropaya köçdü və tam müstəqil şəkildə inkişaf etməyə başladı. XIX əsrdə Avropa və ABŞ-da detektiv ədəbiyyatın inkişafı Emil Qaborionun (Fransa), U.Kollinzin (İngiltərə), Anna K.Qrinin (ABŞ), A.Konan Doylun (İngiltərə) və Q.K.Çestertonun (İngiltərə) yaradıcılığı ilə bağlıdır.

XIX əsrin 90-cı illərinin ortalarından detektiv nəhəng yüksəliş dövrünə qədəm qoydu, ikinci dəfə doğuldu. D.Seyresin haqlı təbirincə, «Konan Doyl E.Ponun formulundan yararlanıb ona həyat və məşhurluğu qaytardı…».[1] Konan Doyl detektiv ədəbiyyatın həqiqi yaradıcısıdır. Bu iddiaya əsas verən mövcudluğunu müəllifin dörd onillik boyu davam etdirdiyi ədəbi qəhrəman – Şerlok Holmsdur. «Tünd qırmızı tonda etüd», «Dördlərin nişanı», «Baskervillərin iti», «Dəhşət vadisi» romanları ilə o, oxucularda qəhrəmanının şücaətlərinə qarşı sönməz marağı yaşatmağa müvəffəq olmuşdu. Konan Doyla üstünlük gətirən onun hərtərəfli, «serial» personajları oldu; təhqiqatın «texniki» təfsilatları da daha çox sələflərindən götürülmüşdü. Konan Doyl yalnız qeyri-adi dərəcədə canlı və parlaq xəfiyyə obrazı deyil, həm də klassik ingilis detektivinin gtalonunu yaratmışdır. O, janra spesifikasına uyğun üslub və dil gətirdi.

Detektiv janrın klassikasına daha bir tanınmış müəllifin – ingilis Gilbert Kiyt Çestertonun da adı daxildir. Çestertonun ən maraqlı və mühüm tapıntısı – Braun atanın obrazı, bu personajın gəlişi ilə cinayətin və ən əsası, onun səbəblərinin açılmasına yeni yanaşmadır. Braun ata haqqında novellalar silsiləsi bir sıra alt silsiləyə bölünür, o, əsas ideyanın tematikası və traktovkası ilə seçilən, həqiqilik axtarışı, qayda və azadlıq kateqoriyası kimi səciyyələndirilə biləcək «Pater Braunun sadəlövhlüyü»,«Pater Braunun müdrikliyi» və b. toplularla təqdim olunur.

Detektivin inkişafının növbəti mərhələsi XX əsrin 20-30-cu illərinə aiddir və onun «qızıl əsri» sayılır. Bu, klassik detektivin çiçəklənməsi və janr kimi təsdiqlənməsi dövrüdür. Müxtəlifliyin ilk əlamətləri məhz 1918-1939-cu illəri əhatə edən bu dövrdə nəzərə çarpmağa başladı. Birinci Dünya müharibəsi detektiv ədəbiyyatın xarakterini xeyli dəyişdi. O dövrdə ədəbiyyat həm də çoxlu sayda xəfiyyələrlə zənginləşdi. Aqata Kristi təhqiqatçılar Erkül Puaro və Ceyn Marpl surətlərini yaratdı, roman-tapmaca və roman-məsələnin imkanlarını son dərəcəyədək inkişaf etdirə bildi, amma elə o da bu imkanların məhdudluğunu hamıdan yaxşı illüstrasiya edə bildi.

Banisi Deşil Hemmet sayılan «sərt» detektiv janrı – triller XX əsrin 30-cu illərinin sonunda Amerikada cəmiyyətin Böyük depressiyadan sonrakıı vəziyyətinə təbii reaksiya kimi meydana gəlir. Hemmetin və davamçılarının ifasında «sərt» detektiv şərlə onun öz üsulları ilə mübarizə aparan sərt qüvvəyə istiqamətlənirdi. Hammer qanqsterizm və korrupsiyanı onların Amerika həyatına bütün pozucu təsirləri ilə təsvir etmiş və bu halların köklü səbəblərini müəyyənləşdirmiş ilk yazıçıdır. Onun davam-

[1] См.: Как сделать детектив. Сборник. Составл. А. Строева. М.: Радуга, 1990, с. 61

çıları: Piter Çini, Karter Braun, Reymond Çandler, Ceyms Çeyz həmçinin «sərt» detektivin inkişafına, onun formuluna əhəmiyyətli töhfə verdilər.

XX əsrin 20-ci illərinin sonunda janrın qanunlarını formalaşdırmağa cəhdlər edildi. Ədəbiyyatda detektiv janrının mahiyyətinə iki konsepsiya, iki baxış yarandı: konservatorların, yaxud ortodoksların konsepsiyası və novatorların, yaxud sosial-tənqidi düşərgənin nümayəndələrinin konsepsiyası. Bu dövrdə Amerika ədəbiyyatında Nik Karter, Elleri Kuin, Ed Makbeyn Ross Makdonalds (özəl xəfiyyə Lu Arçerlə), Xyu Pentekost və b. kimi müəlliflər öz izlərini qoydular.

Detektivin digər ingilisdilli qolu ingilislərlə: Xemond İnnes, Con Dikson Karr, Con Kriz, «idman» detektivinin banisi Dik Frensis, klassik Piter Çeyni və Ceyms Hedli Çeyzlə təmsil olunur.

Amerika və ingilis detektivindən sonra gələn fransız detektivi yazarların sayı və tirajların rəqəmlərinə görə geri qalsa da, əsərlərin keyfiyyətinə görə heç də geri qalmır. Sebastyan Japrizo, Bualo-Narsejak, Jorj Simenon və onun komissar Meqresinin adları bütün dünyaya tanışdır.

Şərqli müəlliflərdən yaponiyalı Seytö Matsumoto və Seyiti Morimura,T.Minikami,E.Rampo, çinli Yuan Tszun və b. bütün dünyada məşhurdur.

Rus ədəbiyyatı da dünya detektivinə öz töhfəsini vermişdir. Detektivin formal əlamətləri F.Dostoyevskinin «Cinayət və cəza» romanında, A.P.Çexovun «Cinayətkar» hekayəsində və b. əsərlərdə yer almışdır. 1917-ci il inqilabından sonra avantüra və macəra romanları kimi, detektiv də 20-ci illərin axırına qədər mövcud oldu. Kitablar işıq üzü görür, jurnallarda ayrı-ayrı əsərlər çap edilirdi. Məsələn, A.Tolstoyun «Mühəndis Qarinin hiperboloidi», P.Nilinin «Sınaq müddəti», L.Nikulinin «Diplomatik sirr» povesti və s.

Detektiv ədəbiyyatı yalnız 50-ci illərin ortalarından etibarən dirçəlməyə başladı. A.Adamovun cinayət axtarışı haqqında silsilə romanları meydana çıxdı. SSRİ-də xarici detektivlərin tərcüməsi də bərpa edildi. XX əsrdə 60-cı illərin sonu – 70-ci illərin əvvəlləri ədəbiyyata peşəkar detektiv yazarlarının gəlişi dövrü oldu. Bu dövrdə Y.Semyonovun cinayət axtarışı əməkdaşı Kostenko haqqında stlsiləsinin ilk iki romanı –«Petrovka, 38» və «Oqaryova, 6», N.Leonovun sevimli xəfiyyəsi Lev Qurovun iştirak etdiyi əsərləri, Arkadi və Georgi Vayner qardaşlarının daimi qəhrəmanı Stas Tixonovun sərgüzəştləri işıq üzü gördü. 70-80-ci illərin ortalarında onlara S.Rodionovun prokurorluq müstəntiqi haqqında, L.Slovinin nəqliyyat milisi xəfiyyələrinin iştirak etdikləri psixoloji romanları və b. əlavə olundu.

Rus detektiv ədəbiyyatı casusluq haqqında əsərlərlə də təmsil edilmişdi. Çar Rusiyasında «casusluq» janrının banisi kimi «Ştabs-kapitan Rıbnikov» hekayəsinin müəllifi A.İ.Kuprini göstərmək olar. Sovet

hakimiyyəti dönəmində hər şeyi yenidən başlamaq lazım gəldi. II dünya müharibəsi ərəfəsində L.Ovalovun əsərləri – «Mayor Proninin macəraları», «Mayor Proninin hekayələri», «Mavi mələk» və b. meydana çıxdı. Bu janrın çiçəklənməsi isə yalnız 50-ci illərin sonuna aiddir. Bu zaman Avdeyenkonun çekistlər və sərhədçilər haqqında əsərləri, Q.Bryantsevin romanları meydana çıxdı. Lakin bunların arasında ən populyarları Y.Semyonovun povest və romanları, Ştirlits haqqında hekayələri, V.Boqomolovun «Qırx dördün avqustunda…» romanı oldu. 80-ci illərin axırı – 90-cı illərin əvvəllərindən isə Rusiyada detektiv janrı üçüncü intibahını yaşadı, onun inkişafında növbəti mərhələ başladı, janr sürətlə inkişaf etməyə başladı və dünya ədəbiyyatı prosesində öz yerini tutdu.

İkinci yarımfəsil **«Detektivin Azərbaycan ədəbiyyatında qaynaqları, meydana çıxması və təşəkkülü»** adlanır. Ölkəmizdə detektivin tarixi dərin köklərə malikdir. Detektiv süjet və elementlərə hələ ən qədim ədəbi qaynaqlarda («Avesta»da qədim midiyalıların «Tomris haqqında əfsanə»sində), Nizami Gəncəvinin poemalarında («Sirlər xəzinəsi»ndə «Nuşirəvan və vəziri», «Zalım padşahla zahidin hekayəsi», «Sultan Səncər və qarı» hekayətlərində, «Xosrov və Şirin», «İsgəndərnamə» poemalarında), XIX əsr ədəbiyyatında (Ə.Haqverdiyevin «Bəxtsiz cavan» əsərində) rast gəlinir. M.S.Ordubadi casusluq romanının yaradılmasına təkan vermişdir. Belə əsərlərin yaradılmasına dair ilk cəhdlər onun «Dumanlı Təbriz», «Gizli Bakı», «Döyüşən şəhər» tarixi romanları oldu, «Gənc çekistlər» romanı isə Sovet hakimiyyəti illərində çekistlərin fəaliyyətinə həsr edilmişdi. İ.Qasımov və H.Seyidbəylinin «Uzaq sahillərdə» romanında da «casus detektivi»nin elementləri var. Lakin sadalanan əsərlərin hamısını detektiv janrına aid etmək olmaz. Onlarda detektivin yalnız süjet və elementləri yer almışdır.

Azərbaycan ədəbiyyatında detektivin əsasını Cəmşid Əmirov qoymuşdur. «Casus» detektivi formasında yazılmış ilk əsər isə onun «Sahil əməliyyatı» povestidir. Daha sonra isə bir-birinin ardınca C.Əmirovun «polis detektivi» formasında yazılmış daha iki əsəri işıq üzü gördü: «Brilyant məsələsi» və «Qara Volqa», az sonra isə «Şəhər yatanda».

Cəmşir Əmirovun davamçısı rusdilli müəllif Zaxar Abramov oldu. O, «Hökm», «Qara mirvari», «Heç nə izsiz keçmir», «Əgər xəfiyyəsənsə» tetralogiyasını qələmə aldı. Bu povestlərin hamısı «polis detektivi» formasında yazılmışdır.

Detektivin inkişafının növbəti mərhələsi Azərbaycan ədəbiyyatında onun yeni növünün – kriminal-psixoloji detektivin meydana çıxması ilə bağlıdır. Bu növün banisi Əkbər Əkbərov oldu («Gözəgörünməz döyüş» povesti). Əsərdə bir sıra cinayətlər törətmiş insanın – Cümşüd Paşayevin

formalaşmasına diqqət yetirilir. Povest baş qəhrəmanın başına gələn müsibətləri təsvir etdiyi gündəlik şəklində yazılmışdır.

Yazıçı Anarın «Gecə yarısında hadisə» povesti də sənədli-kriminal nəsr janrında yazılmışdır. Əsər 1974-cü ilin martında baş vermiş real hadisələri əhatə edir: iki gənc – 23 yaşlı Məmməd Əhmədov və 17 yaşlı Əhməd Əbdülrəhimov qazanc məqsədilə dəhşətli cinayət törədirlər. Anar qəddarlığın səbəblərini, onun nə zaman və harada yaranmasını araşdırır. Qəddarlığın bioloji səbəblərini inkar edən müəllif, onun yaranmasında məqsədsiz ömür sürməyin, insanlara qarşı etinasızlığın, yalnız pulu, var-dövləti düşünməyin mühüm rol oynadığını göstərir.

Yazıçı-dramaturq Rüstəm İbrahimbəyov da «İstintaq» əsərilə kriminal-psixoloji janrda qələmini sınayır. Cinayət törədildiyini sübut etməyə çalışan müstəntiq Seyfi dəlillər axtarır və aydınlaşdırır ki, cinayətdə ittiham olunan insan günahkar deyil və bunu sübut etməyə çalışır, çünki cinayətkar – keçmş idmançı, dünya çempionu, sex rəisi Muxtar Əbiyev bütün günahı öz üzərinə götürür. Seyfi onun həyatını xilas etməyə və əsl cinayətkarları ifşa etmyə çalışır.

Lakin bu janrın ən parlaq təmsilçisi Natiq Rəsulzadə oldu. Bu baxımdan, onun Əfqanıstan müharibəsi dövrünü əhatə edən «İntihar edənin qeydləri» povesti maraq doğurur. Siyasi olaylar və cəmiyyətdə dərin kök salmış mafioz dairələrin fəaliyyəti fonunda N.Rəsulzadənin qəhrəmanının problemi faciəvi və əlacsızdır. Burada yazıçı qlobal, ictimai problemləri fərdin prizmasından açıqlayır.

Çingiz Ələkbərzadə də sənədli-kriminal janrda yazıb-yaratmışdır. Müəllif «Zindan» adlanan ilk əsərini əlli yaşında ikən həbsxana kamerasında yazmışdı. Onun «Qumarbaz» kitabında toplanməş povest və hekayələri də sənədli-kriminal janrdadır. Cingiz Ələkbərzadə həbsxananın daxili aləmini açır, burada məhbusların necə yaşadıqlarını, həm həbsxana administrasiyası və əməkdaşları, həm də başqa məhbuslar tərəfindən necə alçaldıldıqlarını təsvir edir. Onun kriminal-psixoloji povest, hekayə və digər əsərləri məhkəmə sisteminin ədalətsizlikləri, həbsxanalarda insan talelərinin sındırılması, həbsxana və kriminal həyatın dəhşətlərinin təsvirinin həqiqiliyi ilə oxucunu sarsıdır.

Ötən əsrin 80-ci illərində Azərbaycan detektivi inkişafının növbəti, yeni mərhələsini yaşayır. Yeni müəlliflər də meydana çıxır ki, onların arasında Çingiz Abdullayev, «polis detektivi» ənənələrini davam etdirən Sergey Seyranov, Valentin Cüməzadə, Lətif Əkbər, Səfər Əli və b. daha çox diqqəti çəkir.

Valentin Cüməzadə «Cinayət axtarışı üçün etüd» hekayəsini «klassik» detektiv janrında yazır. Baş qəhrəman – xəfiyyə-detektiv, cinayət

axtarışı idarəsinin əməkdaşı Valeh qiymətli markaların oğurlanması ilə bağlı işi təhqiq etmək üçün memar Zamanovun evinə dəvət edilir. Burada klassik sözü ona görə işlədilir ki, baş qəhrəmandan başqa, hekayədə bütün qəhrəmanlar şübhə altındadır və əsl cinayətkarı tapmaq lazımdır.

Lətif Əkbərin «Fironların xəzinəsi» əsəri də maraqlı süjetə malikdir. Bu roman Azərbaycan detektivi üçün yeni olan macəra janrında, lakin detektiv elementləri ilə yazılmışdır. Əsər Qədim Misir dəfinələrinin axtarılmasından bəhs edir. Baş qəhrəman – Sorbonna Universitetinin məzunu Anri Veltseni Şərq (Qədim Misir) tarixi üzrə ixtisaslaşır. Əsərdə macəra süjetinin əsasını kriminal motiv təşkil edir.

Azərbaycan detetkiv ədəbiyyatında «sərt detektiv», triller meydana çıxır. Bu janrın banisi «Nə qədər ki yağış yağmayıb», «Sonuncu müştəri» romanlarının müəllifi Səfər Əlidir.

O dövr Azərbaycan ədəbiyyatı üçün səciyyəvi olmayan həbsxana həyatı mövzusu öz bədii həllini İ.Qarayevin yaradıcılığında tapdı. Bu baxımdan, onun «Sxodka», «Budaqlar», romanları əlamətdardır. «Sxodka» kriminal həyatdan bəhs edən, personajların – cinayətkarların psixologiyasını onların mürəkkəb xarakterləri ilə birlikdə açan və müəllifin digər əsərlərindən köklü şəkildə fərqlənən romandır. Süjet xəttinin mürəkkəbliyi, həbsxana həyatının, məhbus aləminin özünəməxsusluğu, burada baş verən hadisələrin real təsviri, həbsxana «prokurorluğu» və «məhkəməsinin» çirkin fəaliyyəti və digər məsələlər romanda orijinal bədii həllini tapmışdır.

Dissertasiyanın III fəsli – **«Detektiv janrı və müasir Azərbaycan ədəbiyyatı»** iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil **Cingiz Abdullayevin** – Azərbaycan ədəbiyyatında siyasi və intellektual detektivin banisinin yaradıcılığına həsr edilmişdir. Onun məhsuldar yaradıcılıq fəaliyəti sayəsində son 20-25 ildə klassik detektiv güclü şəkildə inkişaf etməkdədir. Klassik detektivin qanunları ilə müasir tematikanı məharətlə əlaqələndirən yazıçının siyasi detektiv formasında yazılmış əsərləri, sadəcə, hansısa tarixi faktların quru açıqlaması deyildir. Müəllif həmin hadisələrə şəxsi münasibətini bildirir ki, bununla da oxucuda maraq doğurur. Detektiv ədəbiyyatında müəllif mövqeyinin açıqlanması yenilikdir. Ç.Abdullayevin klassik detektivləri – «Demək olar ki, qeyri-adi qətl» povesti və «Peşəkarların oyunları» romanı A.Kristinin əsərlərinə yaxındır. O, A.Kristinin tətbiq etdiyi bir çox priyomlardan yararlanır. Janrın qanunlarına riayət edərək, Ç.Abdullayev bu əsərlərində xəfiyyə-detektivi bacarıqlı, ağıllı, həmişə düz danışan bir insan kimi təsvir edir.

Ç.Abdullayev Azərbaycan ədəbiyyatında «siyasi» detektivin də banisidir. Onun «İnsan ovu», «Apokalipsisi gözləyərkən», «Qanın üç rəngi» və b. əsərlərində qlobal, ümumbəşəri problemlər öz əksini tapmışdır:

zülm, cinayətkarlıq, korrupsiya, narkomafiya və terrorla mübarizə. Ç.Abdullayevin «siyasi» detektivi bitkinliyi və aktuallığı ilə səciyyələnir. Onun əsərlərində qoyulan əsas problemlərdən biri sovet imperiyasının dağılması və bunun Rusiya imperiyası, sonra isə Sovet imperiyası tərkibində yaşamış və hələ də yaşayan xalqlar üçün nəticələridir. Bu mövzunun işlənilməsi qlobal və çətin həll edilən problemlərdən biridir. Ç.Abdullayevin bilavasitə bu mövzuya həsr olunmuş əsərləri içərisində aşağıdakıları xüsusilə qeyd etmək lazımdır: «Qürubdan sonra», «Parçalanmanın rəmzləri», «İrodun kölgəsi», «Ümid külü», «Dağılma» silsiləsi və b. Bu problem yalnız nostalji səpkisində işıqlandırılmır (bu məqam yer alsa da), burada analitik, optimist məqamlar üstünlük təşkil edir. Təhkiyənin analitik-sənədli axarı müəllif mətninə özünəməxsus istehza çaları aşılayır.

Ç.Abdullayev «Ümid külü» romanında və siyasi detektivlər silsiləsində – «Əclaflar haqqında seriya»da istər çeçen savaşı, istərsə də Azərbaycan-Ermənistan müharibəsində qaçqınlar problemini qaldırır.

Bir sıra romanlarında müəllif gənc nəslin kriminallaşması problemlərinə toxunur. İlk dəfə bu problem «Bütlərin yükü» romanında qoyulur. Müəllif nəhəng imperiyanın gələcəyinin gənc nəslin tərbiyəsindən necə asılı olduğunu göstərir. Bu mövzu «Tver bulvarı» və bir sıra başqa əsərdə davam etdirilir.

Ç.Abdullayev dünyanın bir çox ölkəsində məşhur olan, baş qəhrəman Dronqonun iştirakı ilə ayrı-ayrı roman və povestlərdən ibarət siyasi, klassik və casusluq detektivlərinin müəllifidir. Onun detektivlərində oxucunu cəlb edən əsas cəhət yazıçının bir çox povest və romanının baş qəhrəmanı, cinayətkarlarla (həm siyasi, həm də kriminal) uğurla mübarizə aparan özəl detektiv, peşəkar-analitik Dronqo obrazıdır. Dronqo müəllifin yaratdığı unikal, mütləq obraz – onun ideyalarının təcəssümü, kəşfiyyatçı, xəfiyyə-analitikin ümumiləndirici obrazıdır. Bu obraz bir qədər avtobioqrafikdir, çünki onda yazıçının özünün xarakteri və düşüncələrinin bəzi cəhətləri əks olunmuşdur. Mənşəcə Dronqo müəllifin həmyerlisi – azərbaycanlıdır, azərbaycanlılara məxsus bütün müsbət cəhətlərin – mərdlik, cəsarət, alicənablıq, nəciblik, hansı millətə mənsubiyyətindən asılı olmayaraq, insanlara sevgi, həssaslıq kimi keyfiyyətlərin daşıyıcısıdır. Bu qəhrəman məqsədyönlüdür, dostlarına sadiqdir, bəzən savaşqandır, özünü ağıllı göstərməyi xoşlayır, hərdən hərəkətlərində dəqiqlik yoxdur, belə romanlarda olduğu kimi, özü bunun əleyhinə olsa da, güllə atmağı xoşlamasa da, şərait məcbur etdikdə, bəzən güc tətbiq edir (yumruqlar, silah). Qəhrəman öz ideallarına sadiqdir, bəzən doğulduğu və həyatının şüurlu hissəsini yaşadığı əvvəlki dövlətin həsrətini çəkir. Lakin bu nəhəng ölkəni

parçalayan səbəblərdən agahdır: hakimiyyətin çürüklüyü və korrupsiyaya uğraması, kommunizm quruluşunun pozğunluğu.

A.Konan Doyl, A.Kristi, J.Simenon, Y.Flemnqdən sonra indiyi qədər çoxsaylı detektiv əsərlərinin heç bir müəllifi möhtəşəm qəhrəmanlar – Şerlok Holms, Erkül Puaro, Komissar Meqre ilə yanaşı durmağa layiq olan parlaq detektiv obrazı yarada bilməmişdir. Uzun illərdən sonra Ç.Abdullayev əfsanəvi ədəbi qəhrəman –Dronqo obrazını yaratmağa nail oldu. Bu barədə Azərbaycan ədəbiyyatşünası A.Hacıyev çox gözəl yazır: «İdeoloji maneələr ləğv edildikdən sonra müasir müəlliflərdən yalnız biri əsərlərində adları yuxarıda çəkilən üçlüklə yanaşı dayanmağa layiq olan ədəbi detektiv obrazı yarada bildi».[1]

Ç.Abdullayevi onun əsərlərindəki nostalji notlara görə tənqid etsələr də, bu, yalnız səthi müşahidələrdir, yalnız ilk baxışdan olan görüntüdür. Qeyd etmək lazımdır ki, bu nostalji konkret imperiyanın parçalanmasından deyil (müəllif əsərlərində bu hadisələrin səbəbləri barədə dəfələrlə danışır), daha çox müəyyən idealların, inamın itməsi ilə bağlıdır. Müəllifi müasir cəmiyyətin ideyasızlığı, mənəvi püçlüğü narahat edir.

Son iyirmi ilin bütün tarixi və siyasi hadisələri yazıçının detektivlərində bədii əksini tapmışdır. O, müasir dünyanın ən zəruri problemlərinə toxunur. Onun bütün əsərləri pislik, cinayətkarlıqla mübarizəyə yönəlmişdir.

Ç.Abdullayev detektivi yeni priyomlar, parlaq obrazlarla zənginləşdirdi, günümüzdə populyar olan bu janrın davamçıları üçün yeni imkanlar yaratdı və onu layiqli olaraq beynəlxalq səviyyəyə çıxardı.

İkinci yarımfəsil **«Müasir mərhələdə Azərbaycan ədəbiyyatında detektiv janrının durumu»** adlanır. Son iyirmi ildə Azərbaycan ədəbiyyatında detektiv nəsrin növbəti pilləyə yüksəldiyi və intensiv inkişaf etdiyi nəzərə çarpır. Bir birinin ardınca əsərləri diqqət cəlb edən və araşdırmağa layiq olan detektiv müəllifləri meydana çıxır.

Bununla əlaqədar, İlqar Fəhminin yaradıcılığı üzərində dayanmaq zəruridir. Onun «Aktrisa» romanı psixoloji detektiv janrında yazılmışdır. Həyati materiala əsaslanan, parlaq obrazlı dildə yazılmış bu əsər, detektiv janrının bütün tələblərinə cavab verərək, həm də fəlsəfi-psixoloji məqamlara görə diqqəti cəlb edir. Qətllərin istintaqını aparan müasir xəfiyyə – müstəntiq Eldar Əfəndiyev obrazı maraqlı təqdim olunur. Əsərdəki bütün hadisələr psixoloji detektivin tələbləri çərçivəsində təqdim edilir, məntiqi, ardıcıl, bədii priyomlardan istifadə edilməklə işlənmişdir, gerçəkliyə uyğundur.

---

[1] Гаджиев А. Суперцикл о Дронго // Литературный Азербайджан, 2003, № 2, с. 90.

Əsas məqsəd əsərin mahiyyətini oxucuya tam dolğunluğu ilə çatdırmaqdır. «Aktrisa»nın ideyası da maraqlıdır. Həyatın özü də bir oyundur. İnsanlar bir-biri ilə oynayırlar. Bu oyun qaçılmaz, məcburidir, çünki heç kim ətrafdakılara qəlbində, beynində nələr baş verdiyini sona qədər açıqlamır.

İlqar Fəhminin «Akvalaq» romanı antitezalar üzərində qurulmuş əsərdir. Romanda kəskin sosial tematika olmasa da, bəşəriyyəti daim narahat edən mövzulara toxunulur: xeyir və şər, əxlaqi dəyərlər, şərəf və ləyaqət, insanın istək və ehtirasları. Əsərdə mistika ilə gerçəklik qovuşur, cənnət və cəhənnəm, paklıq və günaha batma haqqında fəlsəfi notlar yer alır.

Əlisafa Azayev «polis detektivi» janrından bir çox əsərlərində bəhrələnmişdir. Bunlarda XX əsrin 70-80-ci illəri Azərbaycan əyalətinin həyatı öz əksini tapır. O, əsərlərində Azərbaycanın kəndləri və əyalətlərində sadə insanların gündəlik əmək həyatını, həmçinin hüquq-mühafizə, ədliyyə, daxili işlər orqanları əməkdaşlarının ağır işini əks etdirir. «Gecəyarı suiqəsd» əsərində müəllif qanunçuluğun keşiyində dayanan milis əməkdaşlarının sayıqlığından bəhs edir. Povestin əsas leytmotivi hüqüq orqanlarının cinayətkarlığın qara qüvvələri ilə barışmaz mübarizəsidir. Ə.Azayev C.Əmirovun «polis» detektivi ənənələrinin davamçısıdır. Bu, onun əsərlərinin həm tematikasında, həm də baş qəhrəmanların obrazlarında müşahidə edilir. Onun bir çox povest və romanlarında 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə, yaxud ötən əsrin 70-80-ci illərində baş vermiş hadisələr təsvir edilsə də, müəllif bütün bunları müasirlik prizmasından keçirir, keçmişdə baş vermiş hadisələrə çağdaş insanın gözlərilə baxır.

Elxan Elatlı son illər yazılmış bir çox detektiv hekayə, povest və romanın müəllifidir. Onun «Arxalı canavar» romanı macəra-detektiv janrında yazılmışdır. Bu romanda müəllif özünün digər əsərlərində də rast gəlinən Qambay Qasımlı – özəl xəfiyyə, keçmiş polis zabiti obrazını yaradır.

E.Elatlının «Qan ləkəsi» romanı polis detektivi, döyüş və casusluq romanlarının özünəməxsus sintezidir. Əsərdə mühüm aktual problemlərə toxunulur: gənc nəslin tərbiyəsi, ailə-məişət və müəllim-tələbə münasibətləri və s. Lakin əsas mövzu Qarabağ müharibəsi və onun faciəvi nəticələri, Azərbaycan-Ermənistan münaqişəsi, müharibənin nəticələrinin bütöv nəsillərin taleyində öz əksini tapmasıdır. Bu baxımdan, roman tərbiyəvi-vətənpərvərlik əhəmiyyətinə malikdir, doğma yurda məhəbbət duyğuları tərbiyə edir.

Müəllifin «Bakıdan gələn xəfiyyə» romanı klassik detektiv janrında yazılmışdır. Burada uzaq Sibirdə yaşayan və işləyən azərbaycanlıların həyatından danışılır. Cinayət baş verir – məşhur azərbaycanlı iş adamının

öz evində təşkil etdiyi əyləncə gecəsində qətl törədilir. Özəl xəfiyyə Qasımlı Sibirdə yaşayan Azərbaycan diasporunu yerli əhalinin qisasından, bu ittihamın doğura biləcəyi ağır nəticələrdən xilas edir.

«Xəyanət» romanı psixoloji detektiv janrında yazılmışdır və janrın tələblərinə uyğundur. E.Elatlı oxucuya ən ağlasığmaz qətllərdən danışır, romanda mürəkkəb ailə münasibətləri, saf məhəbbət, xəyanət, sadiqlik, borc, alicənablıq, xeyirxahlıq kimi mühüm məsələlər qaldırır, qəhrəmanlarının psixoloji xarakteristikasını təqdim edir.

Öz əsərlərində Elçin Həsənov kəskin sosial və fəlsəfi mövzulara toxunur. Eyni zamanda, o, ənənələrə mənfi münasibət bəsləyir ki, buna görə bütün əsərləri rüsvayçı əsərlər adlandırılır. 2011-ci ildə E.Həsənovun qələminə məxsus «Qafqazlılar Böyük Vətən müharibəsində (qafqazlıların məktubları)» mətni məşhurlaşdı. Böyük Vətən müharibəsi illərində qafqazlı əsgərlərin cəbhə yazışmalarının arxivlərinin açılmasından ibarət olan bu mətndə işğal olunmuş ərazilərdə əsgərlərin törətdkləri vəhşiliklər və təhqirlərin təsviri, bunlar haqqında məşhur siyasətçilər, alimlər və hərbçilərin dialoqları yer almışdır. Həmin mətnə bir çox sayt və forumda mötəbər sənəd kimi istinad edilir.

Son 10 il ərzində E.Həsənov «Cəlb etmə», «Kidneppinq qurbanı», «Qatillər», Onu öldürmək», «Katana», «Jurnalistin qətli», «Bakılı bandit Rita Çopurun dindirilməsi (Kriminal oçerklər)» casus detektivlərini yazmışdır.

Elçin Əyyubov da detektiv janrında yazıb-yaradır. Onun ilk əsəri – «Yaquar üçün tələ» detektiv elementli macəra romanıdır. Burada gənc psixoloqun qeyri-adi, bəzən ağlasığmaz macəraları təsvir edilir. Taleyin hökmü ilə qəhrəman narkotik alverilə bağlı hadisələrin mərkəzinə düşür. O, təsadüfən narkobaronların pullarına sahib olur və sonuncular cavan oğlanı ələ keçirmək üçün, sözün əsl mənasında, ova çıxırlar. Ağır sınaqlara tab gətirən qəhrəman möcüzəli şəkildə salamat qalır.

E.Əyyubovun «Cəhənnəmdə 45 gün» adlı ikinci romanı casus və siyasi detektivlərlə döyüş romanının özünəməxsus qarışığı kimi diqqəti çəkir. Əsər insan təxəyyülünün ən qəddar törəməsindən – terrorçuluqdan bəhs edir. «Söhbət, əlbəttə, özəl bir hadisədən, yəni erməni terroru və təcavüzünün əlahiddə mövqedə durduğu ayrılıqda götürülmüş bir ölkədən gedir».[1] Əsərdə müxtəlif ölkələrin – Azərbaycan, ABŞ, Rusiya, İsrail və Ermənistanın xüsusi xidmət orqanlarının işi təsvir edilir. Müəllif ermənilərin ASALA terror təşkilatının yaranması və fəaliyyəti barədə tarixi arayışlar təqdim edir, onun Dağlıq Qarabağda törətdiyi vəhşilikləri təsvir

[1] Эйюбов Э. Сорок пять дней в преисподней. Роман. Баку: Ширваннешр, 2008, с. 3.

edir, havayı işçi qüvvəsindən – azərbaycanlı əsirlərdən istifadə etməklə Ermənistan siyasətçilərilə birlikdə bizim torpaqları narkotik plantasiyalarına çevirmələrindən danışır, bəzi erməni siyasətçilərinin, məşhur simaların, məsələn, Zori Balayanın təsvirini verir. Bütün bu priyomlar siyasi detektiv üçün səciyyəvidir.

Beləliklə, Azərbaycan ədəbiyyatında detektivin inkişaf tarixini izləyərək, bu janra müraciət edən yazıçıların əsərlərini təhlil edərək, biz detektivin müasir durumu, onun tarixən formalaşan növləri barədə qənaətlərə gələ bilərik.

«**Nəticə**»də tədqiqatın ayrı-ayrı fəsil və yarımfəsillərində irəli sürülən fikir və mülahizələr ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı çap əsərlərində əks olunmuşdur:**


1. Детектив: Эволюция жанра // Filologiya məsələləri. Bakı, 2007, № 6, s. 229-236.

2. Популярность современной детективной литературы // Filologiya məsələləri. Bakı, 2007, № 7, s. 198-203.

3. Становление и развитие детективного жанра в азербайджанской литературе // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2008, № 4 (64), s. 89-92.

4. Современный взгляд на прошлое // Elmi axtarışlar (folklorşünaslıq: filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri). Bakı, 2009, № IV, s. 204-209.

5. Детективный жанр. Обзор критических работ // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (ali məcmuəsi). Bakı, 2009, s. 156-160.

6. Современный детективный жанр и его виды // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2009, № 4(70),

7. Шпионский детектив (краткий обзор) // Поиск. Научный журнал министерства образования и науки. Серия гуманитарных наук, Казахстан, 2010, № 1, с. 176-180.

8. Azərbaycan polisiye romanlarında sosyal hayatın bedii ifadesi: Cengiz Abdullayev'in yaratıcılığı esasında // Sosyoloji Yıllığı-20. Türk Sosyologları ve Eserleri-II. Genel Eğilimler ve Kurumsallaşma. Kitabevi, İstanbul, 2010, s. 456-460.

9. Современное состояние азербайджанского детектива / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Azərbaycanşunaslığın aktual problemləri" mövzusunda III Beynəlxalq elmi konfransının materialları. BSU, 2-5 may, Bakı, 2012, s. 55-58.

**J. J. Abbasova**

## DETECTIVE GENRE IN THE AZERBAIJANI LITERATURE

The dissertation is devoted to studying of laws of occurrence and development of a detective genre, stages of development of a detective, the analysis of its modern condition both in world, and in the Azerbaijani literature, to definition of a place of the Azerbaijan detective in the world literature's history of development.

The dissertation consists of the introduction, three chapters, the conclusion and the list of the used literature.

In dissertation introduction the urgency of a theme of research is proved, also is defined the object and a subject, a main objective and problems, the theoretical and practical importance, and spoken about of researching methods and the positions which are taken out on protection.

Chapter 1 is called "Detective's poetics" and consists of two paragraphs. There are analysed sights and judgements of literary critics on a detective genre, the essence, concept and value of a detective, in particular the Azerbaijani detective as a genre, and is revealed occurrence of the term. The history of a foreign detective is considered on an example of E.Po, A.K.Doyle, G.K.Chesterton, A.Kristi, D.Hemmet and other authors' creativity.

Chapter 2 named by "History of occurrence and development of a world and Azerbaijani detective" includes two paragraphs. In this chapter occurrence, formation and stages of development of a world detective is exposed to research, lights some various forms and detective kinds, is given the comparative-historical analysis of a detective genre in the West European, American, Russian and Azerbaijani literatures, and are defined sources, occurrence and detective formation in the Azerbaijani literature.

Chapter 3 of the dissertation – "The detective genre and the modern Azerbaijani literature" – consists of two paragraphs. The first paragraph is devoted to Chingiz Abdullayev's creativity as the founder of a political and intellectual detective in the Azerbaijani literature. In the second paragraph is analyzed the subjects and a problematics of products of such Azerbaijanian detektiv writers as D.Amirov, A.Azayev, G.Alisaoghlu, E.Elatly, E.Eyyubov, I.Fahmi, I.Karayev, N.Rasulzadeh, C.Alekberzadeh and others.

The Conclusion part of the dissertation contains generalisation of the basic results of research.

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**CƏMİLƏ CƏNUB qızı ABBASOVA**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA DETEKTİV JANRI

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru**
**elmi dərəcəsi almaq üçün təqdim olunmuş**
**dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I - 2016**